# Nəriman Nərimanov Azərbaycanı Şərq üçün nümunəvi respublikaya çevirmək istəyirdi

## *(Nəriman Nərimanovun anadan olmasından 145 il keçir)*

**(əvvəli 10, 11 və 12 sentyabr tarixli saylarımızda)**

Nəriman Nərimanov 1924-cü il mayın 27-də məruzəsinə daha bir əlavə etdi: **"Azərbaycandan olan türkləri Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı çıxış etməyə məcbur edirlər...** Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini **erməni daşnaklarına** tapşırır... bu şəxslər elə fikirləşir ki, türklər o qədər axmaqdırlar ki, bütün bunları başa düşmürlər... Gedəcək yolumuz yoxdur. Azərbaycanda vicdanlı işçilər, türk kommunistləri bütün bunları, mən təkrar edirəm, yaddan çıxartmayacaqlar". Mərkəzi Komitəyə yazdığı məruzəsinə hər əlavəsində Y.Yaroslavskinin sədri olduğu Mərkəzi Nəzarət Komissiyasının qərəzli fəaliyyətini xatırladan Nərimanov öz mülahizələrində nə qədər haqlı olduğunu isbatlamağa çalışır. 1925-ci il 12 yanvar tarixli əlyazmasında da "müfəttiş" adlandırdığı Yaroslavskinin Azərbaycanda apardığı "təftişi" ifşaedici məzmunda səciyyələndirir. Bundan 16 gün sonra oğlu Nəcəfə yazdığı bitməmiş məktubunda Nərimanov həyatının hesabatını verir. İki aydan da az qaldığı ömrünün başa çatdığı ərəfədə, gələcəkdə onu təftiş edənlərin çoxunun suallarını özü cavablandırmışdı: 30 illik ədəbi fəaliyyəti ilə bağlı yazdıqlarının azlığından utandığını bildirmiş, hətta yazılarının bədii cəhətdən mükəmməl sayılmayacağı düşüncəsi ilə belə əsas motivini göstərmişdir: "ətraf mühitə laqeyd qala bilməzdim".

1925-ci ilin əvvəllərində N.Nərimanovun ədəbi fəaliyyətinin 30 illik təntənələri qeyd edilirdi. Azərbaycanda isə rəsmi hökumət və partiya rəhbərliyi nəinki yubileyi qeyd etmədilər, həm də Moskvadakı ildönümü tədbirlərinə biganə qaldılar. Fevralın 14-15-də Moskvada Nərimanovun ədəbi yubileyinə çox xalqların təmsilçiləri toplaşmışdı. Alimlərin, ictimai təşkilat və idarələrin nümayəndələrinin, siyasi xadimlərin yığıncağında fəxri rəyasət heyəti seçilmişdi: Stalin, Rıkov, Kalinin, Zinovyev, Çiçerin və Krupskaya. Nə bu rəsmi məclisdə, nə də sonra ucqar türk ellərindən Nərimanovu anan, alqışlayan təbriklər içərisində Azərbaycanın ünvanı səslənmədi. Amma bir ay sonra yenə də N.Nərimanovla bağlı kütləvi tədbirlərə nəinki bütün SSRİ, daha geniş coğrafiya ilə birlikdə Azərbaycan xalqı ilə yanaşı, rəsmi dairələr də reaksiya verdilər. Bu, artıq Nərimanovun fiziki yoxluğundan sonrakı münasibət idi. "Milli təmayülçü" - damğası vurulan, "burjua millətçiliyində" təqsirləndirilən N.Nərimanov SSRİ MİK-in sədri kimi milliyyətindən, məkanından asılı olmayaraq sovet rejimindən zərər çəkən yüzlərlə vətəndaşın güvənc yeri olmuşdur. Hər bir şikayətə, xahişə diqqəti, yardım cəhdi qoyduğu dərkənarların məzmununda yaşayır. Məktub və ərizələrin tarixi ilə Nərimanovun qeydləri arasında ən çoxu 1-2 gün fərq vardır. O cümlədən Moskva vətəndaşı M.A.Bakuvinin 17 mart 1925-ci il tarixli ərizəsinə qırmızı xətlə Nərimanov öz əlilə qeyd edib, qol çəkib və özünəməxsus vərdişi ilə son dəfə $19-\frac{19}{3}-25$ tarixini də göstərib. Bu, həm də onun həyatda mövcudluğunun son tarixi oldu. **Öldürülməsinə dair mülahizələrin və versiyaların olması bolşevik elitasının idarəetmə metodlarını şərtləndirə biləcək məna kəsb edir.** 1925-ci il martın 19-u axşam saat 9-un yarısına qədər gündəlik fəaliyyəti ilə məşğul olmuş N.Nərimanovun qəfil vəfatı, martın 21-də M.İ.Kalininin xatirə mitinqində qeyd etdiyi kimi "gözlənilməz oldu". "Hələ vəfatı gününün səhəri, o, SSRİ MİK-in Rəyasət Heyətində olmuş və özünün iş planını genişləndirmişdir. Milliyyətcə türk, ziyalı və bir çox qabiliyyətlərə malik olub fəhlələr, kəndlilər və bütün türk əhalisi arasında böyük nüfuz və avtoritetə malik idi". M.İ.Kalininin bu fikirləri Y.Yaroslavskinin komissiyasının müddəalarını, aparıcı bolşevik liderlərinin N.Nərimanov haqqında komissiya qarşısında verdiyi ifadələri təkzib edir. N.Nərimanovu Azərbaycana buraxmaq istəməyən qüvvələr ölümündən sonra bu qadağanı "aradan qaldırmaq" istədilər. N.Nərimanovun vəzifəsindən azad olunub, Bakıya dönmək, ədəbi işlə məşğul olmaq xahişini təmin etməyən İ.Stalin ölümündən sonra "Nərimanın istəyini" yerinə yetirmək fikrinə düşmüşdü. Martın 20-də MİK Rəyasət Heyəti komissiyası qərar çıxarmışdı ki, N.Nərimanovun cəsədi martın 22-də Moskvada, Qırmızı Meydanda dəfn edilsin. Elə həmin gün İ.Stalin AK(b)P MK-ya teleqram göndərərək yuxarıdakı qərarı xəbər verib öz arzusunu belə açıqlamışdı: "...bəzi yoldaşlar belə fikirləşirlər ki, cəsədi Azərbaycana göndərmək məqsədəmüvafiq olardı. Yubanmadan AKP MK-nın fikrini bildirmək xahiş olunur". Teleqramı alan kimi S.Kirov başda olmaqla AK(b)P MK Rəyasət Heyəti toplaşıb İ.Stalinin meylinə müvafiq, N.Nərimanovun cəsədinin Bakıda dəfn olunması haqqında qərar çıxardı. Hətta bir az da operativ tərpənib, SSRİ MİK-in razılıq verəcəyi təqdirdə Bakıdakı dəfnlə məşğul olacaq komissiyanın tərkibini də müəyyənləşdirdilər. Amma MİK-in qərarı qüvvədə qaldığından N.Nərimanov kommunist paytaxtında dəfn olunur. Dəfn mitinqində L.B.Kamenev MİK-in qərarını xüsusi vurğularla - səbəblərlə əsaslandırır. Qafqaz siyasətində sahibi - mütləq İ.Stalinin qərarına yəqinlikdən AK(b)P MK-da əks ehtimala müvafiq tədbir görülmür. Yalnız dəfndən iki gün sonra martın 24-də Azərbaycan nümayəndə heyəti Moskvaya çatır, 26-da isə Nərimanovun qəbrini ziyarət edir. Bütün bunlarla N.Nərimanov "epoxası" sona yetmir. "Nərimançılıq" düşüncə tərzinin növbəti repressiya dövrü başlanır. Post-stalinizm dövründə belə N.Nərimanov tam siyasi bəraət ala bilməmişdir. Onun qızğın "beynəlmiləlçi", "Leninçi", "marksist" kimi obrazlarını təsdiqləməyə yönəlmiş əsərlər belə xatirəsinin əbədiləşdirilməsi, abidəsinin ucaldılması üçün yetərli olmamışdır.

Məhz bu zaman ÜRK(b)P MK Siyasi Bürosunun N.Nərimanovla Y.Yaroslavski arasında yaranmış "münaqişə"nin aradan qalxdığını və Nərimanova Mərkəzi Komitənin tam etimadını təsbit edən 1923-cü il 15 noyabr tarixli qərarı həlledici rol oynamışdır.

N.Nərimanovun anadan olmasının 100 illiyinin keçirilməsi, abidəsinin ucaldılması birmənalı qarşılanmadı. N.Nərimanovun vaxtilə mübarizə apardığı bolşeviklərin özləri, yaxud övladları tərəfindən ciddi təzyiq göstərildi. Amma Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin səyi və qətiyyəti sayəsində 1972-ci ildə N.Nərimanovun yubileyinin keçirilməsi və abidəsinin ucaldılması gerçəkləşdi. İyunun 7-də N.Nərimanova qoyulmuş abidənin açılışına həsr edilən mitinqdə, bir müddət sonra, iyunun 22-də yubiley yığıncağında Heydər Əliyev N.Nərimanovun həyat və fəaliyyəti haqqında məruzə ilə çıxış etmişdir. Məruzə mətni geniş müzakirələrdən sonra hazırlanmışdır. Məruzənin layihəsi ilə bağlı şəxsən H.Əliyevin iştirakı ilə Azərbaycan SSR-in ali dövlət məmurlarının birgə müzakirəsi keçirilmişdir. Müzakirədə Nərimanovun 1918-ci ildə Həştərxana getməsinin onun xəstəliyi ilə bağlı olduğunu göstərmək, qəfil vəfatını isə "onun uzun sürən xəstəliyi ilə" əlaqələndirmək təklif edilirdi. Amma iyunun 22-də edilmiş məruzədən təklifin təmin edilmədiyi bəlli olur, səbəb-əlaqə göstərilmədən N.Nərimanovun qəflətən vəfat etdiyi deyilirdi. Məruzədə işlənən hər bir sözün diqqətə alındığı müzakirəyə yekun vuran H.Əliyev öz rəyini bildirməyə N.Nərimanovun 100 illiyi haqqında məsələnin tarixindən bəhs edərək başlamışdır. Yubileyin 2 il sonra qeyd olunmasını N.Nərimanovun təvəllüd tarixinin sənədlərdə fərqli göstərilməsi ilə izah etmişdir. Nərimanov haqqında mükəmməl arayışın olmadığı səbəbindən 2 dəfə yubileyin başqa vaxta keçirildiyini bildirmişdir. Əslində isə N.Nərimanovun anadan olmasının 100 illiyinin keçirilməsinin 2 il yubadılmasının həqiqi səbəblərini Heydər Əliyev 18 il sonra verdiyi müsahibədə açıqlamışdır: "1970-ci ildə N.Nərimanovun 100 illik yubileyi ərəfəsində materiallarla tanış olanda onun həyatının son dövrlərinin nə qədər faciəli olduğu məni çox ağrıtdı. Nərimanovun 100 illiyi 1970-ci ildə tamam oldu, yubileyini isə 1972-ci ildə keçirdik. Soruşa bilərsiniz niyə? Çünki bu yubileyi keçirməkçün iki il mübarizə aparmaq lazım gəldi. Çünki N.Nərimanova "millətçi" damğası vurulmuşdu. Millətçi ruhlu ermənilər açıq yox, gizli manevələr törədirdilər, cürbəcür kanallarla MK-da belə rəy yaradırdılar ki, guya N.Nərimanov böyük səhvlər buraxıb və bu səhvlər millətçilik nəzəriyyəsindən irəli gəlib, guya o, yubileyi keçirilməyə layiq şəxsiyyət deyil. Nərimanovun abidəsini qoymaq bizim üçün nə qədər çətin olub! Heç kəsə demədiklərimi indi sizə açıram. Qoy, xalqım bilsin! Mənim sinəmdə çox sirlər var! Bəzilərini indi açıram. İki dəfə Suslovun, Brejnevin yanına getdim, ancaq onlara Nərimanov barədə başqa informasiyalar vermişdilər. Əjdər İbrahimov İsa Hüseynovla birlikdə Mosfilmdə N.Nərimanova həsr olunmuş dəyərli film çəkmişdi. Bizdən qabaq həmin filmə Moskvada baxmışdılar və ermənilərin təsiri altında olan MK-ın bəzi məsul işçiləri həmin filmi qadağan eləmişdilər. Bir sözlə, filmi buraxmırdılar, nə yubileyi keçirməyə, nə də abidəni qoymağa imkan vermirdilər. Çalışdım, mübarizə apardım, neçə adamı inandırdım və axır ki, istəyimə nail oldum. MK-da N.Nərimanovun 100 illik yubileyinin keçirilməsinə dair qərara nail olduq. "Pravda" qəzetində N.Nərimanovun yubileyinə həsr olunmuş böyük məqaləm getdi. N.Nərimanovun yubileyini böyük təntənə ilə keçirdik. Bakıda möhtəşəm abidəsini ucaltdıq. Nərimanov haqqında gözəl filmə də icazə aldıq... Təəssüf ki, Moskvada filmi müəyyən qədər ixtisar etdilər, adını da dəyişdirdilər. Əvvəl adı "Doktor Nərimanov" idi, Nərimanov adı geniş yayılmasın deyə adını "Ulduzlar sönmür" qoydular. Onun ev-muzeyini yaratdıq. Nərimanovun yubileyinə hazırlıq dövründə biz Ulyanovsk vilayətinin rəhbərliyinə müraciət etdik. Nərimanov Leninin silahdaşı olduğu üçün onun xatirəsinin Leninin vətənində əbədiləşməsi haqqında təklif verdik. Razılıq aldıq. 1979-cu ildə Ulyanovsk şəhərində Nərimanovun böyük abidəsi ucaldı. Şəhərin böyük bir prospektinə Nərimanovun adı verildi. Ulyanovska getdim, abidənin təntənəli açılışında çıxış etdim". 1972-ci ildə N.Nərimanovun yubileyinin keçirilməsi ilə bağlı müzakirədə Heydər Əliyev bunu da vurğulamışdır ki, "Bizim dövrümüzdə V.İ.Lenin istisna olmaqla heç bir partiya-dövlət xadiminin 100 illiyi qeyd olunmamışdır". Nərimanovun yubileyini məhz partiya və dövlət xadiminin yubileyi kimi qeyd etməyə hazırlaşdıqlarını söyləyərkən Heydər Əliyev narahatlığını da ifadə etmişdir: "Biz hər şeyi çox ətraflı düşünərək etməliyik, xüsusən ona görə ki, bizdə, təəssüflər olsun ki, Nərimanov haqqında ümumi bir sənəd yoxdur". Vaxtilə Nərimanovu "burjua-millətçiliyində", "müsavatçılıqda" ittiham edənlərin varisləri yenidən hərəkətə keçmişdilər. Məhz bu zaman N.Nərimanova tam partiya etimadı göstərilməsi haqqında 15 noyabr 1923-cü il tarixli qərar mühüm rol oynamışdır. Həmin sənəd isə Heydər Əliyevin səyi ilə məxfi arxivdən əldə edilmişdir. Bu barədə Heydər Əliyev 1990-cı ildə demişdir: "N.Nərimanovun Leninə məşhur məktubu çox gözəl məktubdur, tarixdə ifşaedici bir sənəd kimi qalmışdır. Sonra həmin məktubu Moskvaya gətirdim. Dedim: Burada nə var? Güman edirəm ki, tarixçilərimiz bu məktubu elmi surətdə tədqiq edib, ona qiymət verməlidirlər. N.Nərimanov o məktubda deyirdi ki, Azərbaycan respublikasında sosializm quruluşu gərək Azərbaycan xalqının milli xüsusiyyətləri, milli ənənələri ilə əlaqədar olsun. Rusiyada olan üsulu burada kor-koranə tətbiq etmək olmaz... Məktubun əsas məzmunu bundan ibarət idi. Düzdür, burada çox ideyalar var, mən, ancaq qısa məğzini deyirəm". Yubiley məruzəsinə məsuliyyətlə yanaşan H.Əliyev müzakirə zamanı tənqidi mülahizələrini bildirərkən Nərimanov haqqında söyləmişdir: **"Nərimanov azərbaycanlılar arasında ən iri siyasi fiqurdur".** Bu fikrindən az sonra şəxsiyyətin həddən artıq şişirdilməsini, istənilən böyüdülməni onun qiymətdən salınması kimi səciyyələndirilməsi Heydər Əliyevin N.Nərimanov şəxsiyyətinə verdiyi dəyərin miqyasını və həqiqiliyini müəyyənləşdirir. Bu dəyər həm də Nəriman Nərimanovun rəsmi "siyasi statusunun" toxunulmazlığının qarantına çevrildi. "Rəsmi" statusla "ictimai" status arasındakı bu mütənasiblik 20 il yaşaya bildi. "Tamamilə məxfi" qrifli geniş məruzəsi (N.Nərimanovun İ.Stalinə məktubu kimi tanınan) sovet dövlətinin son illərində işıq üzü gördü. N.Nərimanov bir siyasi fiqur kimi yenə də "ikili" taleyini yaşamalı oldu. Vaxtilə ona qarşı ittihama çevrilmiş ifadələr, yazılar indi əks məzmun kəsb edirdi. M.S.Ordubadinin "Nərimançılıq" yazısı "Bəraətə çevrilmiş ölüm hökmü" adlandırılır, bununla belə "kommunistlərin ən yaxşısına vida" edənlər də tapılırdı. Fəaliyyəti siyasi məzmun daşımış şəxsiyyətlərə birmənalı münasibətin olmaması təbii sayıla bilər. Fəaliyyətləri dövlətinin, millətinin müqəddəratı ilə kəsişən, həlledici məzmun kəsb edən şəxsiyyətlər tarixi məsuliyyət yükündən azad deyillər. Bu baxımdan Nəriman Nərimanov ictimai-siyasi fiqur, dövlət xadimi kimi Azərbaycan cəmiyyətində, Şərq aləmində, sosialist hərəkatında aktuallığını saxlayan fiqurdur.

**Firdovsiyyə ƏHMƏDOVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, Əməkdar müəllim.**